


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 244 (23.886)

*30 dekabr 2021-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Dekabrın 29-da Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) Hövsan və Yasamal Yaşayış komplekslərində inşa edilmiş binalarda hərbçilər üçün nəzərdə tutulmuş mənzillər istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər iki yaşayış kompleksindəki mənzillərlə tanış olub.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 2011-ci il tarixli Fərmanına əsasən 20 il və daha çox qüsursuz xidmət edən hərbi qulluqçular dövlət vəsaiti hesabına mənzillə təmin olunurlar. İndiyədək 2208 hərbçi bu təşəbbüsdən faydalanıb. Yeni 2022-ci ili daha 130 hərbçi ailəsi öz mənzilində qarşılayacaq. Onlardan 48-i Mənzil İnşaatı Dövlət Agentliyinin Hövsan Yaşayış Kompleksində mənzillə təmin edilib. Dövlətimizin başçısı Hövsan Yaşayış Kompleksindəki mənzillərdə yaradılan şəraitlə tanış olub.

Sonra dövlətimizin başçısı MİDA-nın Yasamal Yaşayış Kompleksinə gəlib. Bu kompleksdə isə 82 hərbçi ailəsinə mənzil verilib. Prezident İlham Əliyev mənzillərə baxıb. Mənzillər tam təmirlidir, mətbəx mebeli ilə təchiz olunub. Azərbaycan belə Dövlət proqramının icra edildiyi nadir ölkələrdəndir. Ümumiyyətlə, ölkəmizdə ordu quruculuğu prosesində hərbçilərin sosial müdafiəsi, onların mənzil-məişət problemlərinin həlli, xidmət şəraitinin yaxşılaşdırılması xüsusi yer tutur. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində təqdim olunan növbəti mənzillər bunun əyani təsdiqidir.

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyası keçirilib





Dekabrın 29-da altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyası keçirilmişdir.

Sessiyanın gündəliyinə aşağıdakı məsələlər verilmişdir.

1. 2021-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsinin təsdiq edilməsi
3. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsinin təsdiq edilməsi
4. İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsinin təsdiq edilməsi
5. "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi
6. "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi
7. "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi
8. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) hesabatı

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2021-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları barədə məruzə etmişdir. **(Ali Məclis Sədrinin məruzəsi qəzetin bugünkü nömrəsində dərc olunur)**

Məruzədən sonra Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev və Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev çıxış etmişlər.

Gündəlikdə duran ikinci məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Rəfael Əliyev çıxış etmiş, "Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu səsə qoyularaq qəbul olunmuşdur.

Gündəlikdə duran üçüncü məsələ – Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsi haqqında Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədri Rasim Bağırov çıxış etmiş, "Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu qəbul olunmuşdur.

Sessiyanın gündəliyində duran dördüncü məsələnin müzakirəsi zamanı qeyd olunmuşdur ki, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən işsizliyin yaranması hallarının qarşısının alınması, iş yeri ixtisar olunmuş şəxslərin əməkhaqlarının kompensasiya olunmasının təmin edilməsi və məşğulluğun artırılması məqsədilə işsizlikdən sığorta fondunun vəsaitləri hər il üçün qanunla təsdiq olunur.

Müzakirə olunan məsələ ilə əlaqədar qanun layihəsi oxunmuş və "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu qəbul edilmişdir.

Ali Məclisin Sədri sessiyanın gündəliyində duran beşinci məsələnin müzakirəsi zamanı qeyd etmişdir ki, Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli Qanunu ilə Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında Qanuna dəyişikliklər edilərək deputatların əlillik dərəcələri faizlə əvəz edilmişdir. Buna müvafiq olaraq "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda da müvafiq dəyişiklik edilməsi ilə bağlı Qanun layihəsi hazırlanmışdır.

Sessiyada "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Qanun səsə qoyularaq qəbul olunmuşdur.

Gündəlikdə duran altıncı məsələ ilə bağlı qeyd olunmuşdur ki, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa 2021-ci il 30 sentyabr tarixdə dəyişikliklər edilmişdir. Dəyişikliklər normativ hüquqi aktların hazırlanması, onlara dəyişiklik edilməsi, qüvvəyə minməsi və qüvvədən düşməsi ilə bağlı mövcud normayaratma praktikasında tətbiq olunan qaydaların qanunvericilikdə təsbit edilməsini nəzərdə tutur. Buna müvafiq olaraq "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda da dəyişiklik edilməsi ilə bağlı layihə hazırlanmışdır.

Sessiyada "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Qanun səsə qoyularaq qəbul olunmuşdur.

Sessiyada gündəlikdə duran yeddinci məsələ müzakirə olunmuş, "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Qanun səsə qoyularaq qəbul edilmişdir.

Gündəlikdə duran səkkizinci məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Ülkər Bayramova hesabat vermiş, müzakirə olunan məsələ ilə əlaqədar qərar qəbul edilmişdir.

Ali Məclisin Sədri 2021-ci ildə muxtar respublikanın inkişafında, sabitliyin və sərhədlərin qorunmasında əməyi olanların hamısına təşəkkürünü bildirmiş, şəhidlərimizin əziz xatirəsini yad etmiş, Ali Məclisin deputatlarını, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki ordu, birləşmə və hissələrinin şəxsi heyətlərini, onların ailələrini, şəhid ailələrini və müharibə veteranlarını, sessiya iştirakçılarını, muxtar respublika əhalisini qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə təbrik etmişdir.

Bununla da altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyası öz işini başa çatdırmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun MƏRUZƏSİ

Hörmətli deputatlar və sessiya iştirakçıları!

Bu gün ölkəmizdə ulu öndər Heydər Əliyev yoluna sədaqət davamlı və kompleks inkişafı təmin etmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında kompleks inkişaf davam etdirilmiş, əməkhaqları artırılmış, yüksək rifaha nail olunmuş, sosial-iqtisadi islahatların əhatə dairəsi genişlənmişdir.

Naxçıvan Muxtar Respublikasında 2021-ci ilin ən mühüm hadisəsi mayın 10-da ölkə Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri olmuşdur. Səfər zamanı dövlət başçısı Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağının, Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodromunun, Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının, Süni Mayalanma Mərkəzinin, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının, Culfa-Ordubad magistral avtomobil yolunun, Ordubad rayonunun və ətraf

*Ardı 2-ci səhifədə*

kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin açılışında iştirak etmiş, "Asan xidmət" Mərkəzinin və Ordubad Su Elektrik Stansiyasının tikintisi, Ordubadda dəmir yolu stansiyasının yenidən qurulması ilə tanış olmuşdur.

Ölkə Prezidenti Naxçıvandakı inkişafı qiymətləndirərək demişdir: ***"Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir... Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu gün ulu öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax, bu inkişafda təcəssüm etdirir".***

Hörmətli sessiya iştirakçıları!

2021-ci ildə muxtar respublikada bütün parametrlər üzrə iqtisadi sabitliyə və davamlı inkişafa nail olunmuş, daxili imkanlardan səmərəli istifadə edilmiş, müdafiə, ərzaq və enerji təhlükəsizliyinə diqqət artırılmış, sosial layihələrin əhatə dairəsi genişləndirilmişdir.

İqtisadiyyatın əsas inkişaf göstəricisi sayılan ümumi daxili məhsul istehsalı 2020-ci illə müqayisədə 2021-ci ildə 2,4 faiz artaraq 3 milyard manatdan çox olmuşdur. Onun hər bir nəfərə düşən həcmi 6525 manat təşkil etmişdir ki, bu da 2020-ci ildəki göstəricidən 3,4 faiz çoxdur. Ümumi daxili məhsulun 59 faizdən çoxu istehsalın payına düşmüşdür.

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi və əlverişli biznes mühitinin yaradılması muxtar respublikanın istehsal potensialını və məşğulluq səviyyəsini yüksəltmişdir. Cari ildə sahibkarlara 31 milyon manata yaxın kredit verilmişdir. Göstərilən maliyyə dəstəyi nəticəsində 120 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlamış, il ərzində 52 hüquqi və 2389 fiziki şəxs dövlət qeydiyyatına alınmışdır.

Özəl sektorun inkişafında və iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasında sənaye mühüm yer tutur. Muxtar respublika iqtisadiyyatında aparıcı sahələrdən biri kimi sənayenin inkişafına və infrastrukturun yaxşılaşdırılmasına xüsusi diqqət yetirilmiş, Duzdağda yeni şaxta istifadəyə verilmiş, müasir istehsal müəssisəsinin qurulması davam etdirilmişdir. Görülən işlərin nəticəsidir ki, 2021-ci ildə istehsal olunan sənaye məhsulunun həcmi artaraq 1 milyard 69 milyon manatdan çox olmuşdur, bunun da 92 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Kənd təsərrüfatını inkişaf etdirmədən nə ərzaq təhlükəsizliyindən, nə də iqtisadi inkişafdan danışmaq mümkündür. Çünki aqrar sektor bir tərəfdən sənaye müəssisələrini xammalla təmin edir, digər tərəfdən isə özünüməşğulluğu təşviq edir, yerli istehsalın həcmi artır, daxili bazar qorunur. 2021-ci ilin məhsulu üçün muxtar respublikada 64 min hektardan artıq sahədə əkin aparılmışdır. Əkilmiş sahələrin 32 min 721 hektarını taxıl təşkil etmiş, zəmilərdən 103 min tondan artıq məhsul yığılmışdır.

Qarğıdalı əkinlərinə də diqqət artırılmış, məhsulun vaxtında toplanması üçün tədbirlər görülmüş və tələbatın yerli istehsal hesabına ödənilməsinə nail olunmuşdur. 2021-ci ildə 2150 hektar qarğıdalı sahəsindən 21 min tona yaxın məhsul tədarük edilmiş, hər hektarın orta məhsuldarlığı 96 sentner olmuşdur. Bostan-tərəvəz məhsullarına olan tələbat da nəzərə alınmış, muxtar respublika üzrə 6203 hektar sahədə tərəvəz, 2479 hektar sahədə bostan əkinləri həyata keçirilmiş, 102 hektar yeni meyvə bağı salınmışdır. Bundan başqa, 3470 hektar sahədə kartof, 52 hektar sahədə tütün əkini aparılmışdır ki, bu da bir il əvvəlki göstəricilərlə müqayisədə 7 və 16 faiz çoxdur.

Toxumçuluq inkişaf etdirilmədən əkinçilikdə uğur qazanmaq mümkün deyil. Ona görə də muxtar respublikada torpaq mülkiyyətçilərinin məhsuldar və yerli iqlim şəraitinə uyğun toxumlarla təminatı sahəsində ardıcıl tədbirlər görülür. 2021-ci il iyulun 15-də "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsin yaradılması muxtar respublikada toxuma olan tələbatın yerli istehsal hesabına ödənilməsi və bu sahədə dövlət nəzarətinin gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malik olmuşdur.

Kənd təsərrüfatının davamlı inkişafı torpaq mülkiyyətçilərinin və fermerlərin müasir kənd təsərrüfatı texnika və texnoloji avadanlıqları ilə təminatını zəruri edir. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2021-ci ildə 327 müxtəlif adda kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınmış, 346 texnika lizinq və nağd yolla satılmış, məhsul istehsalçıları 7 min tondan artıq mineral gübrə ilə təmin olunmuşdur.

Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, mütərəqqi suvarma şəbəkələrinin qurulması və münbitliyin artırılması əkinçiliyin inkişafında mühüm əhəmiyyət daşıyır. "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı"nın icrası diqqətdə saxlanmış, Kəngərli rayonunun Böyükdüz kəndində 363 hektar sahədə qapalı suvarma şəbəkəsi tikilmişdir. Şahbuz rayonunun Külüs, Nursu və Mahmudoba kəndlərinin ərazisində 340 hektar sahəni su ilə təmin edən nasos stansiyasının tikintisi başa çatdırılmışdır. Hazırda həmin ərazidə qapalı suvarma şəbəkəsi qurulur. Həmçinin tədbirlər planına əsasən ötən dövrdə muxtar respublikanın şəhər və rayonlarında dövlət ehtiyat fondu və qış otlaq sahələri üzrə 8583 hektar əkinəyararsız torpaq sahələri xəritələşdirilmiş, muxtar respublika ərazisindəki 214 kilometr kanalın və 429 kilometr kollektor-drenaj şəbəkəsinin əhatə etdiyi ərazilərin topoqrafik planları hazırlanmışdır.

Ərzaq təminatında xüsusi çəkiyə malik olan heyvandarlığın inkişafına diqqət artırılmış, cari ildə bu sahə ilə məşğul olanlara 13 milyon 494 min manatdan çox kredit verilmişdir. Məhsuldarlığın yüksəldilməsində mal-qaranın cins tərkibinin yaxşılaşdırılması vacib amildir. Babək rayonunda Süni Mayalanma Mərkəzinin fəaliyyətə başlaması bu sahədə mühüm əhəmiyyətə malik olmuşdur.

Kənd təsərrüfatının inkişafında arıçılıq mühüm rol oynayır. "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası davam etdirilmiş, cari ilin ötən dövründə arıçılara 505 min manat kredit verilmişdir. Arıçılıqla məşğul olan hüquqi və fiziki şəxslərə saxladıqları hər arı ailəsinə görə subsidiyaların verilməsi davam etdirilmişdir. 2021-ci ilin sonuna muxtar respublikada arı ailələrinin sayı 100 mindən artıq olmuşdur. Dövlət proqramı üzrə görülən işlər, xüsusilə Naxçıvan şəhərində "Arıçılıq məhsulları-bal" yarmarkasının keçirilməsi istehsal olunan məhsulların satışına müsbət təsir göstərmişdir.

Sağlam heyvandarlıq məhsulu istehsalında başlıca şərt baytarlıq xidmətinin düzgün təşkil olunmasıdır. Muxtar respublikada baytarlıq təbabəti sahəsində görülən işlər, yaradılan infrastruktur bu sahədə müsbət nəticələrin qazanılmasına səbəb olmuş, heyvanlar arasında yoluxucu xəstəliklərin yayılmasının qarşısı alınmışdır. Ali Məclis Sədrinin "Baytarlıq sahəsində həyata keçirilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2021-ci il 4 oktyabr tarixli Fərmanı isə xidmətin təşkilində yeni yanaşma ortaya qoymuş, özəl baytarlıq məntəqələri yaradılmağa başlanılmışdır.

Ailə təsərrüfatları iqtisadiyyatın inkişafında və özünüməşğulluğun təmin olunmasında uğurlu modeldir. Cari ildə ailə təsərrüfatlarına 1 milyon 221 min manatdan çox güzəştli kredit verilmiş, istehsal olunmuş məhsulların satışına dəstək göstərilməsi məqsədilə "Ailə təsərrüfatı məhsulları" yarmarkası keçirilmişdir.

Ümumilikdə, 2021-ci ildə muxtar respublikada 573 milyon 380 min manatdan artıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2020-ci illə müqayisədə 5,3 faiz çoxdur.

Muxtar respublikada ətraf mühitin mühafizəsi, yaşıllıqların qorunması və artırılması diqqətdə saxlanılmış, keçirilən yaşıllaşdırma tədbirləri çərçivəsində 342 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 330 mindən çox ağac və gül kolu əkilmişdir. Hazırda tingçilik təsərrüfatlarında yetişdirilən meyvə və həmişəyaşıl tinglər, gül və bəzək kolları daxili tələbatı tam ödəyir.

Muxtar respublikada inkişafı xarakterizə edən əsas cəhətlərdən biri də tikinti-quruculuq işlərinin həcminin ilbəil artmasıdır. Hər il yaşayış məntəqələrində yeni inzibati binaların və sosial obyektlərin istifadəyə verilməsi, yeni yolların çəkilməsi əhalinin rahat yaşayışına xidmət edir. 2021-ci ildə muxtar respublikada 312 sosial və inzibati obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmiş, 168 obyektdə tikinti və yenidənqurma işləri isə davam etdirilmişdir.

Əhalinin içməli su təminatının yaxşılaşdırılması aparılan quruculuq işlərinin əsasını təşkil edir. Cari ilin ötən dövründə 141 kilometr içməli su xətti çəkilmiş və 45 kilometrə yaxın xətt təmir olunmuş, müxtəlifölçülü 6 kaptaj tikilmiş, 11 kəhrizin bərpası başa çatdırılmışdır.

Yol-nəqliyyat infrastrukturunun yenilənməsi tədbirləri də davam etdirilmiş, 122 kilometr uzunluğunda yeni asfalt yol salınmış, 1 körpünün tikintisi, 5 körpünün isə təmiri başa çatdırılmışdır. 2021-ci ildə muxtar respublikada dəmir yolu nəqliyyatı ilə 41 min tondan artıq yük və 117 minə yaxın sərnişin daşınmışdır.

Muxtar respublikada rabitə və yeni texnologiyaların tətbiqi sahəsində kompleks işlər həyata keçirilir. 2021-ci ildə 32 min metrdən çox fiber-optik və 100 min metrdən çox rabitə xətləri çəkilmiş, yaşayış məntəqələrində 3648 nömrə tutumlu 8 ATS, Sədərək Rayon Radio-Televiziya Ötürücü Stansiyasının yeni binası istifadəyə verilmiş, 6300-dən artıq yeni internet istifadəçisi qeydiyyata alınmış, 6 yeni poçt bölməsi yaradılmışdır.

Son illər muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması və elektroenergetika infrastrukturunun müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər diqqət mərkəzindədir. Xüsusilə alternativ və bərpa olunan enerji mənbələrindən istifadə abonentlərin elektrik enerjisi ilə dayanıqlı təminatına və ucuz enerji istehsalına səbəb olmuşdur. Bu sahədə görülən işlər cari ildə də davam etdirilmiş, 5 meqavat gücündə Şərur Günəş Elektrik Stansiyası və Culfa rayonunda 1,1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik Stansiyası istifadəyə verilmiş, Şahbuz rayonunda 3 kəndin elektrik sistemi yenidən qurulmuş, Ordubad rayonunda 32 meqavatlıq Ordubad Su Elektrik Stansiyasının, Şərur rayonunda isə Günəş Elektrik Stansiyasının tikintisi davam etdirilmişdir.

Təbii qaz təchizatı sisteminin müasirləşdirilməsi də diqqətdə saxlanılmış, Naxçıvan Qaz-Kompressor Stansiyası istifadəyə verilmişdir.

İnkişafın ən mühüm nəticələri təhsil infrastrukturunun yenilənməsində özünü göstərir. 2021-ci ildə Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsinin binası yenidən qurulmuş, yeni mərkəz, kabinə və laboratoriyalar yaradılmış, Naxçıvan şəhərində yeni tələbə yataqxanasının açılışı olmuşdur. Babək rayonunun Araz kəndində 88, Göynük kəndində 88, Şərur rayonunun Şəhriyar kəndində 224, Dərvişlər kəndində 198, Ordubad rayonunun Nüsnüs kəndində 414, Aşağı Əndəmic kəndində 252, Dırnıs kəndində 216, Vələver kəndində 198, Ordubad şəhərində 612 şagird yerlik məktəb binaları və Şərur rayonunun Şəhriyar kəndində uşaq musiqi məktəbi istifadəyə verilmişdir.

Naxçıvan Dövlət Universitetinin Texnologiyalar Parkının yaradılması, Naxçıvan şəhərində Kimya-Biologiya Təmayüllü Liseyin, "STEAM" Tədris Mərkəzinin, Babək rayonunun Sirab və Ordubad rayonunun Pəzməri kəndlərində məktəb binalarının, Şərur rayonunun Çərçiboğan kəndində uşaq musiqi məktəbi binasının, Naxçıvan şəhərində uşaq bağçasının tikintisi, Naxçıvan Dövlət Universitetinin rektorluq binasının, Şərur rayonunun Çərçiboğan kəndində məktəb binasının yenidən qurulması davam etdirilmişdir.

Gənc nəslin təhsilə yiyələnməsi ilə bağlı həyata keçirilən tədbirlər nəticəsiz qalmamış, 2021-ci ilin qəbul imtahanında iştirak edən abituriyentlərin 1963-ü ali və orta ixtisas məktəblərinin tələbəsi adını qazanmış, muxtar respublikanın qəbul göstəricisi 73 faiz olmuşdur. Qəbul imtahanlarının nəticəsinə əsasən 261 nəfər 500-dən yuxarı bal toplamışdır. Yüksək nəticə ilə tələbə adını qazananlardan 3-ü Prezident təqaüdünə layiq görülmüşdür.

Ötən dövrdə muxtar respublikada əhalinin sağlamlığının etibarlı təmin olunması məqsədilə tədbirlər həyata keçirilmiş, Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi, Modul Tipli Xəstəxana, Ordubad Rayon Uşaq Xəstəxanası, Şərur, Culfa və Şahbuz rayonlarının Gigiyena və Epidemiologiya şöbələri, Şərur rayonunun Şəhriyar, Ordubad rayonunun Nüsnüs, Yuxarı Əndəmic və Dırnıs kəndlərində həkim ambulatoriyaları, Şərur rayonunun Dərvişlər, Ordubad rayonunun Vələver, Babək rayonunun Araz və Göynük kəndlərində feldşer-mama məntəqələri istifadəyə verilmiş, muxtar respublikanın səhiyyə müəssisələrinə 17 təcili tibbi yardım avtomobili təqdim olunmuş, Şərur rayonunun Çərçiboğan kəndində həkim ambulatoriyasının tikintisi davam etdirilmişdir.

İcbari tibbi sığortanın tətbiqi əhaliyə göstərilən səhiyyə xidmətinin keyfiyyətini daha da artırmışdır. 2021-ci ildə Cəhri və Nehrəm qəsəbə, eləcə də Aralıq kənd sahə xəstəxanalarında da icbari tibbi sığortanın tətbiqinə başlanılmışdır. Hazırda Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 21 tibb müəssisəsi icbari tibbi sığortanın tətbiqində iştirak edir. 2021-ci ildə muxtar respublikada 219 minə yaxın sakin icbari tibbi sığortadan istifadə etmişdir.

Milli və mənəvi dəyərlərin yaşadılması, tarixi-dini obyektlərin bərpası və gələcək nəsillərə çatdırılması sahəsində də tədbirlər həyata keçirilir. 2021-ci ildə Ordubad rayonunun Nüsnüs kəndində su dəyirmanı və Cəhri qəsəbəsində yeni məscid istifadəyə verilmiş, Naxçıvan şəhərində yeni məscidin tikintisi və Ordubad Cümə məscidinin bərpası davam etdirilmişdir.

Cari ildə Şərur, Sədərək və Kəngərli rayonlarında Bayraq meydanları, Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi istifadəyə verilmiş, Kəngərli rayonunda Tarix-Diyarşünaslıq Muzeyinin, Naxçıvan şəhərində Uşaq Kitabxanasının, Şərur Rayon Mədəniyyət Sarayının tikintisi, Mərkəzi Kitabxana və Uşaq Kitabxanası binasının yenidən qurulması davam etdirilmişdir.

2021-ci ildə muxtar respublikanın maliyyə sektorunda da tədbirlər diqqətdə saxlanılmış, dövriyyədə olan nağd pul kütləsinin azaldılması, nağdsız əməliyyatların həcminin artırılması, elektron ödəniş sistemlərinin geniş tətbiqi üçün tədbirlər görülmüşdür. 2021-ci ildə fiziki və hüquqi şəxslər üçün 186 mindən çox bank hesabı açılmışdır ki, bunun da 94 faizi işlək hesablardır. Ticarət və xidmət müəssisələrində olan 1507 POS-terminal vasitəsilə nağdsız ödənişlərin aparılması təmin edilmişdir.

Muxtar respublikada pandemiya ilə mübarizə tədbirləri də davam etdirilmiş, yaşayış məntəqələrində qrafik əsasında dezinfeksiya işləri aparılmış, əhali peyvəndə cəlb olunmuş, lazımi dərman ehtiyatı yaradılmış, epidemioloji sabitlik qorunub saxlanılmışdır.

Bu dövrdə sosial qayğıya ehtiyacı olan 330 ailənin özünüməşğulluğu təmin olunmuşdur.

Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatlarda və aparılan quruculuq işlərində gənclərin mənzillə təminatı xüsusi yer tutur. 2021-ci ildə muxtar respublikada bu məsələ diqqətdə saxlanılmış, "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyəti və banklar tərəfindən, ümumilikdə, 191 ailəyə 7 milyon manatdan artıq ipoteka krediti verilmişdir.

Naxçıvanda bədən tərbiyəsi və idmanın kütləvi hal almasına, ən əsası isə gənclərin fiziki inkişafına xüsusi diqqət yetirilir. 2021-ci ildə idman infrastrukturlarının yaradılması sahəsində işlər davam etdirilmiş, Uzunoba Təlim-Məşq İdman Kompleksi və Ordubad Şəhər Stadionu istifadəyə verilmişdir. İl ərzində keçirilən ölkə və beynəlxalq səviyyəli idman yarışlarında muxtar respublika idmançıları, ümumilikdə, 82 medal qazanmışlar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il sentyabrın 23-də "Naxçıvan Muxtar Respublikası ərazisində yaşayan Vətən müharibəsi ilə əlaqədar şəhid ailəsi statusu almış, habelə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması haqqında" Sərəncam imzalamış, 1 milyon manat vəsait ayrılmışdır. Həmçinin 2020-ci il dekabrın 14-də muxtar respublikada Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu yaradılmışdır. 2021-ci ildə ölkə Prezidentinin müvafiq Sərəncamı ilə ayrılmış və dəstək fondunun vəsaitləri hesabına muxtar respublikada 28 şəhid ailəsi və qazi mənzillə, 28 Vətən müharibəsi iştirakçısı avtomobillə təmin olunmuş, müvafiq kateqoriyadan olan 23 şəxsin müalicə və müayinəsinə köməklik göstərilmiş, şəhid ailələri və qazilərdən 17-nin kredit borcu ödənilmiş, 25-nin isə mənzilləri təmir olunmuşdur.

Əhalinin rahat yaşayışının təmin edilməsi tədbirləri çərçivəsində yaşayış məntəqələrinin inzibati ərazi bölgüsündə dəyişikliklərin aparılması zərurətə çevrilmişdir. Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli "Naxçıvan Muxtar Respublikasının Şərur və Sədərək rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Qanununa əsasən Şərur rayonunun inzibati ərazi bölgüsünə daxil olan Dəmirçi kəndi Sədərək rayonunun inzibati ərazi bölgüsünə daxil edilmişdir.

*Ardı 3-cü səhifədə*

Naxçıvan Muxtar Respublikasında yerli özünüidarənin təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər bələdiyyələrin imkanlarını genişləndirmiş, onlar üçün əlverişli şərait yaratmışdır. Cari ildə muxtar respublika bələdiyyələrinə 31 texnika və 2 avtomobil verilmişdir.

2021-ci ildə Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində görülən işlər davam etdirilmiş, muxtar respublikanın müdafiə potensialı daha da möhkəmləndirilmişdir. Naxçıvan şəhərində Mərkəzi Hərbi Hospitalın, qərargah binasının, iki əsgər yataqxanasının, iki anbarın, aerodrom kompleksinin, təlim meydanının tikintisi başa çatdırılmış, Şahbuz rayonunda zabit-gizir ailələri üçün xidməti yaşayış binasının tikintisi davam etdirilmişdir.

Şərur rayonunda 6-cı Sərhəd Zastavası üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilmiş, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının şəhərciyində idman kompleksinin, 5-ci Sərhəd Zastavası üçün infrastruktur obyektlərin tikintisi, 1-ci Sərhəd Komendantlığı binasının və Nehrəm Təlim Mərkəzinin yenidən qurulması və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının əsgər yataqxanasının əsaslı təmiri davam etdirilmiş, 20 ildən artıq qüsursuz xidmət edən 2 hərbçiyə mənzil verilmişdir.

Əhali arasında hüquq maarifi və profilaktiki tədbirlərin gücləndirilməsinin nəticəsidir ki, cinayətkarlıq üzrə göstəricilərin aşağı səviyyədə olması qorunub saxlanılmışdır.

Sosial-iqtisadi sahədə əldə edilmiş uğurlar, sabitlik və təhlükəsizliyin təmin edilməsi muxtar respublikada məskunlaşmanın və əhali rifahının yaxşılaşmasına öz təsirini göstərmiş, muxtar respublika əhalisinin sayı artaraq 463 min nəfər olmuşdur.

2021-ci ildə muxtar respublikada Qars müqaviləsinin 100 illiyi və Rəssamlar Birliyinin 50 illik yubileyi qeyd edilmiş, "Naxçıvan – bəşəriyyətin beşiyi" beşinci rəsm festivalı keçirilmişdir.

Muxtar respublikanın kütləvi informasiya vasitələrinin inkişafı da diqqətdə saxlanılmış, 2021-ci il martın 17-də Naxçıvan Dövlət Teleradiosunun fəaliyyəti yenidən təşkil olunmuşdur. Muxtar respublikanın aparıcı mətbuat orqanı olan "Şərq qapısı" qəzetinin 100 illik yubileyi qeyd olunmuş, qəzet əməkdaşlarının əməkhaqları artırılmışdır. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin maddi-texniki bazası və işçilərin sosial müdafiəsi də gücləndirilmiş, sərgi-satış mərkəzi istifadəyə verilmişdir.

2021-ci ildə müxtəlif səviyyəli 40 xarici nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər etmiş, muxtar respublikanın nümayəndə heyətləri isə 39 dəfə xarici səfərdə olmuşlar.

Muxtar respublikanın sosial-iqtisadi inkişafında və qazanılan nailiyyətlərdə xidməti olanların əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Ölkə Prezidentinin sərəncamları ilə 2021-ci ildə muxtar respublika sakinlərindən 48-i müxtəlif orden, medal və fəxri adlarla təltif olunmuş, 10 nəfər Prezident mükafatına, 1 nəfər 2021-ci il Gənclər üçün Prezident mükafatına layiq görülmüş, 1 nəfərə ali hərbi və 1 nəfərə ali xüsusi rütbə, 1 nəfərə isə üçüncü dərəcə dövlət müşaviri ixtisas dərəcəsi verilmişdir. Həmçinin 20 nəfər Naxçıvan Muxtar Respublikasının fəxri adları, 9 nəfər Naxçıvan Muxtar Respublikasının nişanları ilə təltif edilmiş, 2 nəfər Naxçıvan Muxtar Respublikasının mükafatına, 2 nəfər Ali Məclisin Fəxri Fərmanına, 2 gənc isə xüsusi aylıq təqaüdə layiq görülmüşdür.

Hörmətli sessiya iştirakçıları!

Əldə olunan nəticələr onu deməyə əsas verir ki, 2022-ci ildə də Naxçıvan Muxtar Respublikasında inkişaf davamlı xarakter alacaq, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət muxtar respublikada uğurlu nəticələrin qazanılmasına imkan verəcəkdir. Ölkə Prezidentinin də dediyi kimi: ***"Biz bütün istiqamətlərdə uğurla inkişaf edirik. Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik".***

Sağ olun!

# Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında
# Naxçıvan Muxtar Respublikasının
# Q A N U N U

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

**Maddə 1.** Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsinin gəlirləri 146 000 000,0 manat, xərcləri 577 600 000,0 manat, gəlir və xərcləri tənzimləmək üçün ayrılan dotasiya 431 600 000,0 manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 101 130 000,0 manat, yerli gəlirləri 44 870 000,0 manat, mərkəzləşdirilmiş xərcləri 529 979 200,0 manat, yerli xərcləri 47 620 800,0 manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 39 090 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 3 200 000,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 200 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 1 200 000,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 61 746 000,0 |
| 2.5.1. | Naxçıvan Muxtar Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 21 896 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 4 190 000,0 |
| 2.7. | Aksizlər | 18 550 000,0 |
| 2.7.1. | Naxçıvan Muxtar Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 750 000,0 |
| 2.8. | Yol vergisi | 450 000,0 |
| 2.8.1. | Xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 450 000,0 |
| 2.9. | Mədən vergisi | 300 000,0 |
| 2.10. | Gömrük rüsumları | 9 182 000,0 |
| 2.11. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 120 000,0 |
| 2.12. | Dövlət rüsumu | 4 322 000,0 |
| 2.13. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 3 190 000,0 |
| 2.14. | Sair daxilolmalar | 260 000,0 |

**Maddə 3.** Müəyyən edilsin ki, "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu dövlət büdcəsinin aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

| | | |
|---|---|---|
| 3.1. | "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu | 1 800 000,0 |
| 3.1.1. | Yol vergisi | 450 000,0 |
| 3.1.2. | Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi | 150 000,0 |
| 3.1.3. | İdxal olunan minik avtomobillərinə tətbiq edilən aksizlər | 120 000,0 |
| 3.1.4. | İdxal olunan avtonəqliyyat vasitələrinə tətbiq edilən gömrük rüsumu | 360 000,0 |
| 3.1.5. | Naxçıvan Muxtar Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün tutulan dövlət rüsumu | 270 000,0 |
| 3.1.6. | Nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu | 450 000,0 |

**Maddə 4.** Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsinə vergi daxilolmaları müəyyən olunmuş vergi dərəcələrinə uyğun olaraq hesablanır.

**Maddə 5.** Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 5.1. | Ümumi dövlət xidmətləri | 59 866 084,0 |
| 5.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 50 072 302,0 |
| 5.1.2. | elm | 9 693 582,0 |
| 5.1.3. | seçkilərin keçirilməsi və statistika tədbirləri | 100 200,0 |
| 5.2. | Müdafiə və milli təhlükəsizlik | 16 130 815,0 |
| 5.2.1. | müdafiə qüvvələri | 3 843 351,0 |
| 5.2.2. | milli təhlükəsizlik | 12 287 464,0 |
| 5.3. | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq | 84 884 599,0 |
| 5.3.1. | məhkəmə hakimiyyəti | 7 316 226,0 |
| 5.3.2. | hüquq-mühafizə | 69 581 378,0 |
| 5.3.3. | prokurorluq | 7 595 466,0 |
| 5.3.4. | hüquqi yardım | 152 425,0 |
| 5.3.5. | məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər | 239 104,0 |
| 5.4. | Təhsil | 172 310 803,0 |
| 5.4.1. | məktəbəqədər təhsil | 11 682 816,0 |
| 5.4.2. | ümumi təhsil | 117 584 973,0 |
| 5.4.3. | peşə təhsili | 1 865 966,0 |
| 5.4.4. | orta ixtisas təhsili | 5 194 157,0 |
| 5.4.5. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 35 982 891,0 |
| 5.5. | Səhiyyə | 14 270 406,0 |
| 5.5.1. | xəstəxanalar | 6 727 153,0 |
| 5.5.2. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 7 543 253,0 |
| 5.6. | Sosial müdafiə və sosial təminat | 53 963 421,0 |
| 5.6.1. | sosial müdafiə | 5 227 201,0 |
| 5.6.2. | sosial təminat | 2 267 980,0 |
| 5.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 46 468 240,0 |
| 5.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 27 132 909,0 |
| 5.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 18 555 449,0 |
| 5.7.2. | televiziya, radio və nəşriyyat | 5 435 550,0 |
| 5.7.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 555 103,0 |
| 5.7.4. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər | 2 586 807,0 |
| 5.8. | Mənzil və kommunal təsərrüfatı | 21 463 518,0 |
| 5.8.1. | mənzil | 699 600,0 |
| 5.8.2. | kommunal təsərrüfatı | 17 664 450,0 |
| 5.8.3. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 3 099 468,0 |
| 5.9. | Kənd təsərrüfatı | 56 916 820,0 |
| 5.9.1. | kənd təsərrüfatı tədbirləri | 21 355 071,0 |
| 5.9.2. | baytarlıq | 4 567 298,0 |
| 5.9.3. | meliorasiya | 29 476 951,0 |
| 5.9.4. | kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 1 517 500,0 |
| 5.10. | Ətraf mühitin mühafizəsi | 16 785 188,0 |
| 5.10.1. | bioloji zənginliyin qorunması | 1 035 260,0 |
| 5.10.2. | torpaq və yerquruluşu | 800 000,0 |
| 5.10.3. | hidrometeorologiya tədbirləri | 1 649 297,0 |
| 5.10.4. | meşə təsərrüfatı | 1 249 642,0 |
| 5.10.5. | balıqçılıq və ovçuluq | 51 983,0 |
| 5.10.6. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 11 897 506,0 |
| 5.10.7. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 101 500,0 |
| 5.11. | İqtisadi fəaliyyət | 47 765 230,0 |
| 5.11.1. | nəqliyyat və rabitə | 24 520 230,0 |
| 5.11.2. | tikinti və şəhərsalma | 22 000 000,0 |
| 5.11.2.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 22 000 000,0 |
| 5.11.3. | geodeziya və faydalı qazıntılar | 460 000,0 |
| 5.11.4. | iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 785 000,0 |
| 5.12. | Əsas bölmələrə aid edilməyən xərclər | 6 110 207,0 |
| 5.12.1. | ehtiyat fondları | 2 000 000,0 |
| 5.12.1.1. | Naxçıvan Muxtar Respublikasının Ehtiyat Fondu | 2 000 000,0 |
| 5.12.2. | məqsədli büdcə fondları | 1 800 000,0 |
| 5.12.2.1. | "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu | 1 800 000,0 |
| 5.12.3. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 2 310 207,0 |
| 5.12.3.1. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 1 000 000,0 |
| 5.12.3.2. | digər tədbirlər üzrə xərclər | 1 310 207,0 |

**Maddə 6.** Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsinin xərcləri funksional və iqtisadi təsnifatın paraqrafları səviyyəsində təsdiq edilsin.

**Maddə 7.** Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə gəlirlər 45 020 000,0 manat, o cümlədən "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna aid olan məbləğ 150 000,0 manat, yerli xərclər 47 620 800,0 manat olmaqla, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait 2 750 800,0 manat məbləğində təsdiq edilsin.

**(manatla)**

| Sıra №-si | Şəhər və rayonların adı | Gəlirlər | | Yerli xərclər | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi |
|---|---|---|---|---|---|
| | | Cəmi | o cümlədən "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna aid olan məbləğ | | |
| 1. | Naxçıvan şəhəri | 27 985 000,0 | 40 000,0 | 27 945 000,0 | |
| 2. | Şərur rayonu | 4 671 600,0 | 20 000,0 | 4 651 600,0 | |
| 3. | Babək rayonu | 3 192 900,0 | 40 000,0 | 3 152 900,0 | |
| 4. | Ordubad rayonu | 3 153 600,0 | 10 000,0 | 3 143 600,0 | |
| 5. | Culfa rayonu | 2 470 000,0 | 20 000,0 | 2 450 000,0 | |
| 6. | Şahbuz rayonu | 1 320 000,0 | 12 000,0 | 3 194 800,0 | 1 886 800,0 |
| 7. | Kəngərli rayonu | 1 797 700,0 | 7 000,0 | 1 790 700,0 | |
| 8. | Sədərək rayonu | 429 200,0 | 1 000,0 | 1 292 200,0 | 864 000,0 |
| | **Cəmi:** | **45 020 000,0** | **150 000,0** | **47 620 800,0** | **2 750 800,0** |

**Maddə 8.** Dövlət büdcəsinin icrası prosesində qanunvericiliklə müəyyən olunmuş müdafiə olunan xərc maddələri ilk növbədə, digər xərc maddələri isə dövlət büdcəsinin daxilolmalarının vəziyyətindən asılı olaraq maliyyələşdirilir.

**Maddə 9.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 29 dekabr 2021-ci il*

## “Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun tətbiqi barədə

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin FƏRMANI

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, “Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının 2021-ci il 29 dekabr tarixli 7-VI QN nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 5-ci maddəsi ilə funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində ayrılan vəsaitin məbləği inzibati təsnifata uyğun olaraq dövlət büdcəsindən maliyyələşən, maliyyə yardımı alan təşkilatlar və tədbirlər üzrə aşağıdakı qaydada təsdiq edilsin:

**manatla**

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdirilmiş xərclər | Yerli xərclər |
| **1.1.** | **Ümumi dövlət xidmətləri** | **59 866 084,0** | **42 124 106,0** | **17 741 978,0** |
| **1.1.1.** | **Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti** | **50 072 302,0** | **32 460 302,0** | **17 612 000,0** |
| 1.1.1.1. | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi | 3 866 380,0 | 3 866 380,0 | |
| 1.1.1.2. | Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 1 899 115,0 | 1 899 115,0 | |
| 1.1.1.3. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi | 2 750 024,0 | 2 750 024,0 | |
| 1.1.1.4. | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi | 1 508 792,0 | 1 508 792,0 | |
| 1.1.1.5. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 743 429,0 | 743 429,0 | |
| 1.1.1.6. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 519 297,0 | 519 297,0 | |
| 1.1.1.7. | Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi | 475 037,0 | 475 037,0 | |
| 1.1.1.8. | Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi | 676 816,0 | 676 816,0 | |
| 1.1.1.9. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 690 078,0 | 690 078,0 | |
| 1.1.1.10. | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi | 470 745,0 | 470 745,0 | |
| 1.1.1.11. | Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 728 121,0 | 728 121,0 | |
| 1.1.1.12. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 907 571,0 | 907 571,0 | |
| 1.1.1.13. | Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi | 2 985 053,0 | 2 985 053,0 | |
| 1.1.1.14. | Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 559 030,0 | 559 030,0 | |
| 1.1.1.15. | Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 453 271,0 | 453 271,0 | |
| 1.1.1.16. | Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti | 3 248 740,0 | 3 248 740,0 | |
| 1.1.1.17. | Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti | 1 608 861,0 | 1 608 861,0 | |
| 1.1.1.18. | Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 1 423 447,0 | 1 423 447,0 | |
| 1.1.1.19. | Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidməti | 376 920,0 | 376 920,0 | |
| 1.1.1.20. | Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidməti | 424 289,0 | 424 289,0 | |
| 1.1.1.21. | Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi | 777 980,0 | 777 980,0 | |
| 1.1.1.22. | Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi | 281 923,0 | 281 923,0 | |
| 1.1.1.23. | Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti | 267 874,0 | 267 874,0 | |
| 1.1.1.24. | Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzi | 126 470,0 | 126 470,0 | |
| 1.1.1.25. | Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyi | 514 695,0 | 514 695,0 | |
| 1.1.1.26. | Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsi | 256 797,0 | 256 797,0 | |
| 1.1.1.27. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət İdarəsi | 148 211,0 | 148 211,0 | |
| 1.1.1.28. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti | 453 407,0 | 453 407,0 | |
| 1.1.1.29. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidməti | 218 728,0 | 218 728,0 | |
| 1.1.1.30. | Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında “ASAN xidmət” Mərkəzi | 631 577,0 | 631 577,0 | |
| 1.1.1.31. | Şəhər və rayon icra hakimiyyəti orqanlarının saxlanılması | 17 612 000,0 | | 17 612 000,0 |
| 1.1.1.32. | Naxçıvan Muxtar Respublikasının digər mərkəzi təşkilatlarının saxlanılması | 1 906 724,0 | 1 906 724,0 | |
| 1.1.1.32.1. | Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) | 603 308,0 | 603 308,0 | |
| 1.1.1.32.2. | Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi | 694 302,0 | 694 302,0 | |
| 1.1.1.32.3. | Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası | 376 941,0 | 376 941,0 | |
| 1.1.1.32.4. | Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası | 232 173,0 | 232 173,0 | |
| 1.1.1.33. | Qanunvericilik və icra hakimiyyəti orqanları üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 560 900,0 | 560 900,0 | |
| **1.1.2.** | **Elm** | **9 693 582,0** | **9 563 604,0** | **129 978,0** |
| 1.1.2.1. | Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi | 6 534 175,0 | 6 534 175,0 | |
| 1.1.2.2. | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondu | 360 113,0 | 360 113,0 | |
| 1.1.2.3. | Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi | 1 078 213,0 | 1 078 213,0 | |
| 1.1.2.4. | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi | 42 766,0 | 42 766,0 | |
| 1.1.2.5. | Elmi-Tədqiqat Baytarlıq Stansiyası | 179 078,0 | 179 078,0 | |
| 1.1.2.6. | Akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyi | 534 556,0 | 534 556,0 | |
| 1.1.2.7. | Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsi | 923 606,0 | 793 628,0 | 129 978,0 |
| 1.1.2.8. | Elm sahəsi üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 41 075,0 | 41 075,0 | |
| **1.1.3.** | **Seçkilərin keçirilməsi və statistika tədbirləri** | **100 200,0** | **100 200,0** | |
| 1.1.3.1. | Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi | 100 200,0 | 100 200,0 | |
| **1.2.** | **Müdafiə və milli təhlükəsizlik** | **16 130 815,0** | **16 130 815,0** | |
| **1.2.1.** | **Müdafiə qüvvələri** | **3 843 351,0** | **3 843 351,0** | |
| 1.2.1.1. | Naxçıvan Muxtar Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 3 843 351,0 | 3 843 351,0 | |
| **1.2.2.** | **Milli təhlükəsizlik** | **12 287 464,0** | **12 287 464,0** | |
| 1.2.2.1. | Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti | 10 524 097,0 | 10 524 097,0 | |
| 1.2.2.2. | Naxçıvan Muxtar Respublikasının Xarici Kəşfiyyat Xidməti | 1 763 367,0 | 1 763 367,0 | |
| **1.3.** | **Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq** | **84 884 599,0** | **84 884 599,0** | |
| **1.3.1.** | **Məhkəmə hakimiyyəti** | **7 316 226,0** | **7 316 226,0** | |
| 1.3.1.1. | Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | 3 054 530,0 | 3 054 530,0 | |
| 1.3.1.2. | Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | 709 525,0 | 709 525,0 | |
| 1.3.1.3. | Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | 658 507,0 | 658 507,0 | |
| 1.3.1.4. | Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi | 442 209,0 | 442 209,0 | |
| 1.3.1.5. | Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsi | 421 130,0 | 421 130,0 | |
| 1.3.1.6. | Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi (maliyyə təminatı Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən şəhər və rayon məhkəmələri) | 2 030 325,0 | 2 030 325,0 | |
| **1.3.2.** | **Hüquq-mühafizə** | **69 581 378,0** | **69 581 378,0** | |
| 1.3.2.1. | Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi | 32 433 795,0 | 32 433 795,0 | |
| 1.3.2.2. | Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi | 3 040 780,0 | 3 040 780,0 | |
| 1.3.2.3. | Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi | 15 272 043,0 | 15 272 043,0 | |
| 1.3.2.4. | Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi | 7 825 047,0 | 7 825 047,0 | |
| 1.3.2.5. | Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti | 2 633 174,0 | 2 633 174,0 | |
| 1.3.2.6. | Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti | 8 376 539,0 | 8 376 539,0 | |
| **1.3.3.** | **Prokurorluq** | **7 595 466,0** | **7 595 466,0** | |
| 1.3.3.1. | Naxçıvan Muxtar Respublikasının Prokurorluğu | 5 779 673,0 | 5 779 673,0 | |
| 1.3.3.2. | Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu | 1 815 793,0 | 1 815 793,0 | |
| **1.3.4.** | **Hüquqi yardım** | **152 425,0** | **152 425,0** | |
| 1.3.4.1. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi (məhkəmə qərarlarının icrası, məhkəmə prosesləri ilə bağlı göstərilən hüquqi yardım və digər xidmətlər) | 152 425,0 | 152 425,0 | |
| **1.3.5.** | **Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyət** | **239 104,0** | **239 104,0** | |
| 1.3.5.1. | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 239 104,0 | 239 104,0 | |
| **1.4.** | **Təhsil** | **172 310 803,0** | **146 643 745,0** | **25 667 058,0** |
| **1.4.1.** | **Məktəbəqədər təhsil** | **11 682 816,0** | **6 997 871,0** | **4 684 945,0** |
| 1.4.1.1. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 11 682 816,0 | 6 997 871,0 | 4 684 945,0 |
| **1.4.2.** | **Ümumi təhsil** | **117 584 973,0** | **102 857 476,0** | **14 727 497,0** |
| 1.4.2.1. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 117 584 973,0 | 102 857 476,0 | 14 727 497,0 |
| **1.4.3.** | **Peşə təhsili** | **1 865 966,0** | **1 865 966,0** | |
| 1.4.3.1. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 1 865 966,0 | 1 865 966,0 | |
| **1.4.4.** | **Orta ixtisas təhsili** | **5 194 157,0** | **5 194 157,0** | |
| 1.4.4.1. | Naxçıvan Tibb Kolleci | 1 331 882,0 | 1 331 882,0 | |
| 1.4.4.2. | Naxçıvan Musiqi Kolleci | 2 905 297,0 | 2 905 297,0 | |
| 1.4.4.3. | Naxçıvan Dövlət Texniki Kolleci | 956 978,0 | 956 978,0 | |
| **1.4.5.** | **Təhsil sahəsində digər müəssisə və tədbirlər** | **35 982 891,0** | **29 728 275,0** | **6 254 616,0** |
| 1.4.5.1. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi | 155 487,0 | 155 487,0 | |
| 1.4.5.2. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 16 383 432,0 | 15 338 231,0 | 1 045 201,0 |
| 1.4.5.3. | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi | 18 507 828,0 | 13 298 413,0 | 5 209 415,0 |
| 1.4.5.4. | Təhsil sahəsi üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 936 144,0 | 936 144,0 | |
| **1.5.** | **Səhiyyə** | **14 270 406,0** | **14 270 406,0** | |
| **1.5.1.** | **Xəstəxanalar** | **6 727 153,0** | **6 727 153,0** | |
| 1.5.1.1. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 6 727 153,0 | 6 727 153,0 | |
| **1.5.2.** | **Səhiyyə sahəsində proqramlar və digər xidmətlər** | **7 543 253,0** | **7 543 253,0** | |
| 1.5.2.1. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 7 513 253,0 | 7 513 253,0 | |
| 1.5.2.2. | Səhiyyə sahəsi üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 30 000,0 | 30 000,0 | |
| **1.6.** | **Sosial müdafiə və sosial təminat** | **53 963 421,0** | **53 513 999,0** | **449 422,0** |
| **1.6.1.** | **Sosial müdafiə** | **5 227 201,0** | **5 227 201,0** | |
| 1.6.1.1. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidməti | 5 227 201,0 | 5 227 201,0 | |
| **1.6.2.** | **Sosial təminat** | **2 267 980,0** | **1 818 558,0** | **449 422,0** |
| 1.6.2.1. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi | 2 267 980,0 | 1 818 558,0 | 449 422,0 |
| **1.6.3.** | **Sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər** | **46 468 240,0** | **46 468 240,0** | |
| 1.6.3.1. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidməti | 46 268 853,0 | 46 268 853,0 | |
| 1.6.3.2. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi | 199 387,0 | 199 387,0 | |
| **1.7.** | **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət** | **27 132 909,0** | **26 568 967,0** | **563 942,0** |
| **1.7.1.** | **Mədəniyyət və incəsənət sahəsində fəaliyyət** | **18 555 449,0** | **18 042 698,0** | **512 751,0** |
| 1.7.1.1. | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi | 18 510 214,0 | 17 997 463,0 | 512 751,0 |
| 1.7.1.2. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 45 235,0 | 45 235,0 | |
| **1.7.2.** | **Televiziya, radio və nəşriyyat** | **5 435 550,0** | **5 435 550,0** | |
| 1.7.2.1. | Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti | 4 690 172,0 | 4 690 172,0 | |
| 1.7.2.2. | Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi | 745 378,0 | 745 378,0 | |
| **1.7.3.** | **Bədən tərbiyəsi və gənclər siyasəti** | **555 103,0** | **549 083,0** | **6 020,0** |
| 1.7.3.1. | Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi | 555 103,0 | 549 083,0 | 6 020,0 |
| 1.7.3.1.1. | Bədən tərbiyəsi və idmanın təşkili | 427 646,0 | 421 626,0 | 6 020,0 |
| 1.7.3.1.2. | Gənclər siyasəti | 127 457,0 | 127 457,0 | |
| **1.7.4.** | **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər** | **2 586 807,0** | **2 541 636,0** | **45 171,0** |
| 1.7.4.1. | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi | 164 596,0 | 164 596,0 | |
| 1.7.4.2. | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 315 960,0 | 315 960,0 | |
| 1.7.4.3. | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi | 1 360 710,0 | 1 315 539,0 | 45 171,0 |
| 1.7.4.4. | Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi | 142 970,0 | 142 970,0 | |
| 1.7.4.5. | Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti | 151 734,0 | 151 734,0 | |
| 1.7.4.6. | Qeyri-dövlət təşkilatlarına verilən maliyyə yardımı | 437 060,0 | 437 060,0 | |
| 1.7.4.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 13 777,0 | 13 777,0 | |

| | | | | |
|---|---|---|---|---|
| **1.8.** | **Mənzil və kommunal təsərrüfatı** | **21 463 518,0** | **21 463 518,0** | |
| 1.8.1. | Mənzil | 699 600,0 | 699 600,0 | |
| 1.8.2. | Kommunal təsərrüfatı | 17 664 450,0 | 17 664 450,0 | |
| 1.8.3. | Mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 3 099 468,0 | 3 099 468,0 | |
| **1.9.** | **Kənd təsərrüfatı** | **56 916 820,0** | **53 718 420,0** | **3 198 400,0** |
| **1.9.1.** | **Kənd təsərrüfatı tədbirləri** | **21 355 071,0** | **21 355 071,0** | |
| 1.9.1.1. | Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər | 19 900 000,0 | 19 900 000,0 | |
| 1.9.1.2. | Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsi | 455 071,0 | 455 071,0 | |
| 1.9.1.3. | Naxçıvan Muxtar Respublikası Aqrar Sığorta Fondu (kənd təsərrüfatı heyvanlarının və bitkilərinin sığortalanması və Aqrar Sığorta Fondunun nizamnamə kapitalının formalaşdırılması) | 1 000 000,0 | 1 000 000,0 | |
| **1.9.2.** | **Baytarlıq** | **4 567 298,0** | **1 368 898,0** | **3 198 400,0** |
| 1.9.2.1. | Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidməti | 4 567 298,0 | 1 368 898,0 | 3 198 400,0 |
| **1.9.3.** | **Meliorasiya** | **29 476 951,0** | **29 476 951,0** | |
| 1.9.3.1. | Naxçıvan Muxtar Respublikasının Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 29 476 951,0 | 29 476 951,0 | |
| **1.9.4.** | **Kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər** | **1 517 500,0** | **1 517 500,0** | |
| 1.9.4.1. | Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 250 000,0 | 250 000,0 | |
| 1.9.4.2. | Kənd təsərrüfatı sahəsi üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 1 267 500,0 | 1 267 500,0 | |
| **1.10.** | **Ətraf mühitin mühafizəsi** | **16 785 188,0** | **16 785 188,0** | |
| **1.10.1.** | **Bioloji zənginliyin qorunması** | **1 035 260,0** | **1 035 260,0** | |
| 1.10.1.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 1 035 260,0 | 1 035 260,0 | |
| **1.10.2.** | **Torpaq və yerquruluşu** | **800 000,0** | **800 000,0** | |
| 1.10.2.1. | Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti (yerquruluşu və torpaqların kadastrı işlərinin təşkili) | 800 000,0 | 800 000,0 | |
| **1.10.3.** | **Hidrometeorologiya tədbirləri** | **1 649 297,0** | **1 649 297,0** | |
| 1.10.3.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 1 649 297,0 | 1 649 297,0 | |
| **1.10.4.** | **Meşə təsərrüfatı** | **1 249 642,0** | **1 249 642,0** | |
| 1.10.4.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 1 249 642,0 | 1 249 642,0 | |
| **1.10.5.** | **Balıqçılıq və ovçuluq** | **51 983,0** | **51 983,0** | |
| 1.10.5.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 51 983,0 | 51 983,0 | |
| **1.10.6.** | **Ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi** | **11 897 506,0** | **11 897 506,0** | |
| 1.10.6.1. | Ətraf mühitin mühafizəsi sahəsi üzrə yaşayış məntəqələrinə aid olan kommunal təyinatlı infrastrukturların bərpası, yenidən qurulması və abadlaşdırılması | 11 897 506,0 | 11 897 506,0 | |
| **1.10.7.** | **Ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər** | **101 500,0** | **101 500,0** | |
| 1.10.7.1. | Ətraf mühitin mühafizəsi sahəsi üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 101 500,0 | 101 500,0 | |
| **1.11.** | **İqtisadi fəaliyyət** | **47 765 230,0** | **47 765 230,0** | |
| **1.11.1.** | **Nəqliyyat və rabitə** | **24 520 230,0** | **24 520 230,0** | |
| 1.11.1.1. | Avtomobil yollarının saxlanılması, əsaslı və cari təmiri xərcləri | 16 520 230,0 | 16 520 230,0 | |
| 1.11.1.2. | "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinə verilən subsidiya | 8 000 000,0 | 8 000 000,0 | |
| **1.11.2.** | **Tikinti və şəhərsalma** | **22 000 000,0** | **22 000 000,0** | |
| 1.11.2.1. | Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 22 000 000,0 | 22 000 000,0 | |
| **1.11.3.** | **Geodeziya və faydalı qazıntılar** | **460 000,0** | **460 000,0** | |
| 1.11.3.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 460 000,0 | 460 000,0 | |
| **1.11.4.** | **İqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər** | **785 000,0** | **785 000,0** | |
| 1.11.4.1. | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi | 35 000,0 | 35 000,0 | |
| 1.11.4.2. | "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması | 750 000,0 | 750 000,0 | |
| **1.12.** | **Əsas bölmələrə aid edilməyən xidmətlər** | **6 110 207,0** | **6 110 207,0** | |
| **1.12.1.** | **Naxçıvan Muxtar Respublikasının Ehtiyat Fondu** | **2 000 000,0** | **2 000 000,0** | |
| **1.12.2.** | **"Avtomobil Yolları" Məqsədli Büdcə Fondu** | **1 800 000,0** | **1 800 000,0** | |
| **1.12.3.** | **Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət** | **2 310 207,0** | **2 310 207,0** | |
| 1.12.3.1. | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi | 20 000,0 | 20 000,0 | |
| 1.12.3.1.1. | Dövlət təltiflərinin hazırlanması | 20 000,0 | 20 000,0 | |
| 1.12.3.2. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi | 51 100,0 | 51 100,0 | |
| 1.12.3.2.1. | Xüsusi müdafiə olunan və digər sənədlərin çap edilməsi və dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər | 51 100,0 | 51 100,0 | |
| 1.12.3.3. | Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi (fövqəladə halların nəticələrinin aradan qaldırılması) | 1 000 000,0 | 1 000 000,0 | |
| 1.12.3.4. | Digər xidmətlər üzrə xərclər | 1 239 107,0 | 1 239 107,0 | |

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. "Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının 2021-ci il 29 dekabr tarixli 7-VI QN nömrəli Qanunu ilə dövlət büdcəsinin gəlirləri və xərcləri üzrə təsdiq olunmuş göstəricilərin yerinə yetirilməsinə nəzarət etsin;

2.2. bu Fərmanın 1.11.1.1-ci (Avtomobil yollarının saxlanılması, əsaslı və cari təmiri xərcləri) və 1.11.2.1-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) yarımbəndlərində nəzərdə tutulan vəsaitin obyektlər və istiqamətlər üzrə bölgüsünü həyata keçirsin və bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə məlumat versin;

2.3. bu Fərmanın 1.9.1.1-ci (Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə razılaşdırmaqla həyata keçirsin;

2.4. "Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının 2021-ci il 29 dekabr tarixli 7-VI QN nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi:

3.1. 2022-ci ilin dövlət büdcəsinə vergi və dövlət rüsumları üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti ilə razılaşdırmaqla təsdiq etsin;

3.2. 2022-ci ilin dövlət büdcəsinə dövlət gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş vergilər və gömrük rüsumları üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırmaqla təsdiq etsin;

3.3. bu Fərmanın 1.8-ci bəndində və 1.10.6.1-ci yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü və maliyyələşdirməni təmin etsin;

3.4. bu Fərmanın 1.1.1.33-cü, 1.1.2.8-ci, 1.3.5.1-ci, 1.4.5.4-cü, 1.5.2.2-ci, 1.7.4.7-ci, 1.9.4.2-ci, 1.10.7.1-ci yarımbəndlərində nəzərdə tutulan vəsaitin (dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri) gəlir və xərclər smetasının aidiyyəti təşkilatlar üzrə təsdiqini həyata keçirsin;

3.5. bu Fərmanın 1.7.4.6-cı yarımbəndində (Qeyri-dövlət təşkilatlarına verilən maliyyə yardımı) nəzərdə tutulan vəsaitin aidiyyəti təşkilatlar arasında bölgüsünü həyata keçirsin və maliyyələşdirməni təmin etsin;

3.6. "Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 8-ci maddəsindən irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsin;

3.7. "Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının 2021-ci il 29 dekabr tarixli 7-VI QN nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti növbəti illər üçün dövlət büdcəsinin gəlir və xərclərinin proqnozlaşdırılması məqsədilə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan xidmətləri və hüquqi hərəkətləri həyata keçirən hər bir dövlət orqanı üzrə dövlət büdcəsinə daxil olması təmin edilmiş dövlət rüsumuna dair aylıq məlumatları hesabat ayından sonrakı ayın 20-dək Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

5. Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi bu Fərmanın 1.12.3.3-cü (fövqəladə halların nəticələrinin aradan qaldırılması) yarımbəndində nəzərdə tutulan vəsaitin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla bölgüsünü həyata keçirsin.

6. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, büdcədən maliyyələşən və maliyyə yardımı alan təşkilatlar və digər dövlət orqanları maliyyə intizamının gücləndirilməsi, israfçılığa, izafi xərclərə yol verilməməsi və büdcə vəsaitindən qənaətlə istifadə olunması istiqamətində təsirli tədbirlər görsünlər.

7. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 29 dekabr 2021-ci il*

## Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsi haqqında Naxçıvan Muxtar Respublikasının

## QANUNU

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsinin gəlirləri 115 250 000,0 manat, xərcləri 218 415 000,0 manat, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait 103 165 000,0 manat məbləğində təsdiq edilir.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2022-ci ildə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| **Gəlirlərin mənbələri** | | **Məbləğ (manatla)** |
|---|---|---|
| 1. | Məcburi dövlət sosial sığorta haqları, cəmi | 115 200 000,0 |
| | o cümlədən: | |
| 1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 74 800 000,0 |
| 1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 10 200 000,0 |
| 1.3. | qeyri-büdcə sektoru üzrə | 30 200 000,0 |
| | o cümlədən:<br>sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə | 3 000 000,0 |
| 2. | Sair gəlirlər, cəmi | 50 000,0 |
| | o cümlədən: | |
| 2.1. | sanatoriya-kurort yollayışlarının qismən dəyəri üzrə daxilolmalar | 50 000,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| **Xərclərin istiqamətləri** | | **Məbləğ (manatla)** |
|---|---|---|
| 1. | Əhaliyə ödənişlər üzrə xərclər | 213 115 000,0 |
| 1.1. | əmək pensiyalarının ödənilməsi xərcləri | 206 465 000,0 |
| 1.2. | məcburi dövlət sosial sığorta haqları hesabına müavinət xərcləri | 6 650 000,0 |
| 1.2.1. | əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə | 450 000,0 |
| 1.2.2. | hamiləliyə və doğuma görə | 2 150 000,0 |
| 1.2.3. | uşağın anadan olmasına görə | 1 050 000,0 |
| 1.2.4. | 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar | 1 200 000,0 |
| 1.2.5. | dəfn üçün | 1 800 000,0 |
| 2. | Pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri | 1 500 000,0 |
| 3. | Dövlət Sosial Müdafiə Fondunun aparatının və onun yerli qurumlarının saxlanılması xərcləri | 3 800 000,0 |

**Maddə 4. Qalıq vəsaitlərdən istifadə**

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun aparatının və yerli qurumlarının hesablarında ilin sonuna qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 5. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2022-ci ilin yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 29 dekabr 2021-ci il*

## "Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun tətbiqi barədə

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## FƏRMANI

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, "Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının 2021-ci il 29 dekabr tarixli 8-VI QN nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti "Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanunundan irəli gələn məsələləri həll etsin.

2. Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti:

2.1. həmin Qanunun 2-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə aidiyyəti üzrə məlumat versin;

2.2. həmin Qanunun 2-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərin aylıq və rüblük bölgüsünü Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu və Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla təsdiq etsin.

3. Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu Fondun 2022-ci il büdcəsinin xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və aidiyyəti üzrə məlumat versin.

4. Şəhər və rayon icra hakimiyyətlərinə tapşırılsın ki, ərazilərindəki dövlət təşkilatlarının, o cümlədən büdcədən maliyyələşən təşkilatların məcburi dövlət sosial sığorta haqlarını vaxtında və tam ödəməsini təmin etmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin yerli qurumları ilə birlikdə tədbirlər həyata keçirsinlər.

5. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 29 dekabr 2021-ci il*

## İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında Naxçıvan Muxtar Respublikasının QANUNU

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsinin gəlirləri 2 960 000,0 manat, xərcləri 2 960 000,0 manat məbləğində təsdiq edilsin.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2022-ci ildə işsizlikdən sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| | Gəlirlərin mənbəyi | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi | 2 959 000,0 |
| | o cümlədən: | |
| 1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 1 084 500,0 |
| 1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 1 084 500,0 |
| 1.3. | qeyri-büdcə sektoru üzrə | 790 000,0 |
| 2. | Sair gəlirlər | 1 000,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, işsizlikdən sığorta fondunun 2022-ci il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| | Xərclərin istiqaməti | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | İşsizliyə görə sığorta ödənişləri | 50 000,0 |
| 2. | Peşə hazırlığı və əlavə təhsilin təşkili | 290 000,0 |
| 3. | Əmək yarmarkalarının təşkili və peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi | 90 000,0 |
| 4. | Haqqı ödənilən ictimai işlərin təşkili | 110 000,0 |
| 5. | Özünüməşğulluq tədbirlərinin təşkili | 1 510 000,0 |
| 6. | Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi | 40 000,0 |
| 7. | Dövlət Məşğulluq Agentliyinin aparatının və onun yerli orqanlarının saxlanılması xərcləri | 870 000,0 |

**Maddə 4. Qalıqlardan istifadə**

İlin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaitləri növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 5. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 29 dekabr 2021-ci il*

## "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun tətbiqi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin FƏRMANI

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının 2021-ci il 29 dekabr tarixli 9-VI QN nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanunundan irəli gələn məsələləri həll etsin.

2. Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti işsizlikdən sığorta fondunun 2022-ci il büdcəsinin gəlirlərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə aidiyyəti üzrə məlumat versin.

3. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işsizlikdən sığorta fondunun 2022-ci il büdcəsinin xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə aidiyyəti üzrə məlumat versin.

4. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 29 dekabr 2021-ci il*

## Muxtar respublikada fövqəladə hallara hazırlıq diqqət mərkəzindədir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 dekabr tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi yaradılmışdır.*

Ümummilli liderimiz Heydər Əliyevin ***"Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır"*** müdrik fikri əsas götürülərək Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi fövqəladə halların qarşısının alınması, istehsal və sosial təyinatlı obyektlərin, yeraltı və yerüstü sərvətlərin yanğınlardan qorunması, eləcə də tikintidə, sənayedə və dağmədən işlərində texniki təhlükəsizliyin təmin edilməsi sahələrində qarşıya qoyulmuş vəzifələri yerinə yetirməyə çalışır. Nazirliyin maddi-texniki bazası ötən dövrdə əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, peşəkar şəxsi heyət formalaşmışdır. Bu gün muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, yanğın təhlükəsizliyinin, su hövzələrində və tikintidə insanların təhlükəsizliyinin, eləcə də sənayedə texniki təhlükəsizliyin təmin olunması sahələrində məqsədyönlü tədbirlər həyata keçirilir. Nazirliyin əməkdaşları fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında fədakarlıq nümayiş etdirirlər.

Muxtar respublikada aparılan quruculuq işləri Fövqəladə Hallar Nazirliyini də əhatə etmiş, nazirliyin müvafiq qurumları üçün müasir iş və xidmət şəraiti yaradılmışdır. 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə nazirliyin inzibati binasının açılışı olmuşdur. Bundan başqa, 2007-ci ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binası və texniki qarajları yenidən qurulmuşdur. 2009-cu ildə Kəngərli, Şahbuz, Ordubad, 2013-cü ildə Şərur və Babək, 2014-cü ildə isə Sədərək rayon şöbələrinin inzibati binaları və texniki qarajları tikilərək istifadəyə verilmişdir. 2020-ci ilin noyabrın 26-da Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin yeni xidmət kompleksinin istifadəyə verilməsi, yanğınsöndürən və xidməti avtomobillərin, eləcə də yanğınsöndürən və xilasedicilər üçün xüsusi geyim formalarının təqdim olunması bu sahəyə göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Ötən dövrdə Mülki Müdafiə Alayının maddi-tədris bazasının təkmilləşdirilməsi də diqqət mərkəzində saxlanılmış, bu məqsədlə təlim mərkəzi istifadəyə verilmişdir. Həyata keçirilən quruculuq tədbirləri çərçivəsində şəxsi heyətin yaşayış və mənzil şəraitinin yaxşılaşdırılması da diqqətdə saxlanılmış, ölkə Prezidentinin iştirakı ilə Naxçıvan şəhərində zabit-gizir ailələri üçün 48 mənzilli yaşayış binası istifadəyə verilmişdir. Həmçinin bu günə kimi Mülki Müdafiə Alayına, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumlarına müxtəlif təyinatlı yanğınsöndürmə avtomobilləri və nəqliyyat vasitələri, 2010-cu ildə isə xidmətə helikopter verilmiş, Mülki Müdafiə Alayında və Batabat Dövlət Qoruğu ərazisində uçuş-enmə meydançaları hazırlanmışdır. Bu il, həmçinin Mülki Müdafiə Alayında şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə əsgər yataqxanası və yeməkxanasında, qərargah binasında təmir və yenidənqurma işləri həyata keçirilmiş, səfərbərlik ehtiyatı və əşya anbarı yenilənmişdir.

Nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin fəaliyyətinin təmin edilməsi məqsədilə yüksəkmərtəbəli binalarda xilasetmə işlərinin aparılması üçün alpinist şəhərciyi tikilmiş, xüsusi təyinatlı itlərin təlimlərinin keçirilməsi üçün müasir təlim mərkəzi yaradılmış, itlərin saxlanılması üçün Kinoloji bölmə inşa edilmişdir. Aparılan məqsədyönlü tədbirlərin nəticəsidir ki, Xüsusi Riskli Xilasetmə Xidməti bu gün muxtar respublika ərazisində fövqəladə hadisələrə çevik reaksiya verir, xüsusi riskli axtarış və qəzaxilasetmə əməliyyatlarını, zərərçəkmişlərə ilkin və təxirəsalınmaz tibbi yardımın göstərilməsini peşəkarlıqla yerinə yetirir.

Ötən dövrdə peşəkarlığın artırılması məqsədilə nazirliyin əməkdaşları Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına, Bakı Yanğın-Texniki Kollecinə, Ukrayna Respublikasının Xarkov şəhərindəki və Belarus Respublikasının Minsk şəhərindəki akademiyalara təhsil almağa göndərilmişlər. Təhsillərini başa vuran əməkdaşlar müvafiq vəzifələrə təyin edilmişlər.





Bu il nazirliyin müvafiq qurumlarının heyətləri təcrübə qazanılması məqsədilə Naxçıvanda keçirilən "Sarsılmaz qardaşlıq-2021" Azərbaycan-Türkiyə birgə əməliyyat-taktiki təliminə cəlb olunmuşlar. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Avstriya Respublikası Federal Daxili İşlər Nazirliyinin qarşılıqlı əməkdaşlığı çərçivəsində 11-19 dekabr tarixlərdə Qusar rayonunda dağ alpinizmi və qar uçqunlarında axtarış-xilasetmə üzrə təlimində Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinin müvafiq şəxsi heyəti də iştirak edərək Avstriya Daxili İşlər Nazirliyinin müvafiq sertifikatlarını almışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 17 mart tarixli Sərəncamına əsasən "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası" hazırlanaraq nəşr olunmuşdur. Həmin atlas fövqəladə hallar orqanları əməkdaşlarının işinə köməklik edən və mühüm elmi əhəmiyyətə malik olan sənəddir.

Bu gün Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi tərəfindən tikinti materiallarının dövlət standartlarının tələblərinə cavab verməsinin yoxlanılması və həmin sahə üzrə dövlət nəzarətinin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Bundan başqa, əhalinin ehtimal olunan radioaktiv, kimyəvi zəhərlənmələrdən mühafizəsinin təşkilində operativliyi təmin etmək məqsədilə müvafiq tədbirlər görülmüş, bu sahədə maddi-texniki baza gücləndirilmişdir. Həmçinin muxtar respublikada taxılın saxlanma şəraiti, yanğın və texniki təhlükəsizlik məsələləri mütəmadi olaraq yoxlanılır.

2021-ci ildə muxtar respublikada virus infeksiyalarına və yoluxucu xəstəliklərə qarşı profilaktik tədbirlər aparılaraq Naxçıvan şəhərində, rayon, qəsəbə və kənd mərkəzlərində, ümumilikdə, 37 milyon kvadratmetrdən artıq sahədə dezinfeksiya işləri aparılmış, 8 milyon kvadratmetrə yaxın ərazi zərərverici həşəratlara qarşı dərmanlanmışdır.

Cari ildə tikintisi başa çatdırılan 44 obyektin istismara hazırlığı yoxlanılmış, 458 sayda tikinti materialları nümunələri laboratoriya şəraitində sınaqdan keçirilmişdir. 2021-ci ildə muxtar respublikada mülki müdafiə işinin təşkili ilə bağlı 6 obyektdə taktiki-xüsusi təlim, 2 obyektdə məşğələ, 5 konfrans keçirilmişdir. 282 ümumtəhsil məktəbində mülki müdafiə işinin təşkili vəziyyəti yoxlanılmışdır. Həmçinin bu il yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə 4156 obyektdə yoxlamalar keçirilmiş, il ərzində 114 potensial təhlükəli obyektdə yanğın texniki müayinələr aparılmış, işçilər maarifləndirilmişdir.

2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı 784 qazanxananın texniki və yanğın təhlükəsizliyi vəziyyəti yoxlanılmış, 356 nəfər qazanxana maşinisti ixtisası üzrə kurslara cəlb olunmuşdur. Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumları Dövlət Sığorta Agentliyinin nümayəndələri ilə birgə 712 obyektin yanğından icbari sığortalanmasını təmin etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Fövqəladə Hallar Nazirliyi öz fəaliyyətini fövqəladə hadisələrin qarşısının alınması, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi istiqamətində qurur. Ölkəmizdə, eləcə də muxtar respublikamızda nazirliyin fəaliyyəti tam təmin olunmuş, struktur qurumları üçün müasir iş və xidmət şəraiti yaradılmışdır. İnsanların həyatının, dövlət əmlakının, fərdi təsərrüfatların və sahibkarlıq subyektlərinin baş verə biləcək hadisələrdən qorunması nazirliyin və onun müvafiq qurumlarının qarşısında duran başlıca vəzifələrdir".***

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti bundan sonra da fəaliyyətini qarşıya qoyulan tələblər əsasında quracaq, əhalinin və ərazilərin təhlükəsizliyi naminə təxirəsalınmaz tədbirləri uğurla yerinə yetirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 1087